# MÜBARİZ KEŞİKDƏ

1933-cü ildən çıxır

www.mk.mia.gov.az

18 aprel 2019-cu il
Cümə axşamı

№ 14 (3429)

Qiyməti 40 qəpik

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI




**Polis, daxili işlər orqanları Azərbaycan dövlətinin əsas sütunlarından, dayaqlarından biridir. Polis Azərbaycan dövlətinə, dövlətçiliyinə xidmət edir. Azərbaycanın dövlət müstəqilliyinə xidmət edir. Hər bir Azərbaycan vətəndaşına xidmət edir.**

# PREZİDENT İLHAM ƏLİYEV TÜRKDİLLİ DÖVLƏTLƏRİN ƏMƏKDAŞLIQ ŞURASININ BAŞ KATİBİNİ QƏBUL EDİB

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 16-da Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibi Bağdad Amreyevi qəbul edib.

Dövlətimizin başçısı Bağdad Amreyevi Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibi vəzifəsinə təsdiq olunması münasibətilə bir daha təbrik edərək, onun təşkilata üzv olan qardaş ölkələr arasında əməkdaşlığın genişləndirilməsinə töhfə verəcəyinə əminliyini bildirdi. Prezident İlham Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının təsis olunması ilə əlaqədar 10 il bundan əvvəl Naxçıvanda keçirilmiş əlamətdar Zirvə görüşünü məmnunluqla xatırlayaraq, ötən müddət ərzində bu təşkilatın gücləndiyini və vacib beynəlxalq quruma çevrildiyini vurğuladı.

Təbrikə görə minnətdarlığını bildirən Bağdad Amreyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının 10 il əvvəl məhz türk dünyasının böyük oğlu, Azərbaycan xalqının ümummilli lideri Heydər



Əliyevin doğulduğu Naxçıvanda, Azərbaycan torpağında təsis edilməsinin bu təşkilata xüsusi mahiyyət verdiyini diqqətə çatdırdı. Qonaq Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının təsis olunmasının 10 illiyi münasibətilə növbəti Zirvə toplantısına bu ilin payızında Azərbaycanın ev sahibliyi edəcəyini vurğulayaraq, bu Zirvə toplantısının da Azərbaycan tərəfindən yüksək səviyyədə təşkil olunacağına əminliyini ifadə etdi. Bağdad Amreyev təşkilat daxilində iqtisadiyyat, ticarət, maliyyə, nəqliyyat və digər istiqamətlərdə əməkdaşlığın inkişaf etdirilməsi, müvafiq beynəlxalq təşkilatlarla əlaqələrin qurulması barədə dövlətimizin başçısına məlumat verdi.

Prezident İlham Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibi Bağdad Amreyevə gələcək fəaliyyətində uğurlar arzuladı və ölkəmizin bu təşkilatın 10 illiyi münasibətilə Azərbaycanda keçiriləcək Zirvə toplantısına yüksək səviyyədə ev sahibliyi edəcəyini dedi.

# “MÜHARİBƏ VETERANLARINA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN TƏQAÜDÜ”nün TƏSİS EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 25 fevral tarixli 992 nömrəli Sərəncamının icrası ilə əlaqədar **qərara alıram:**

1. “Müharibə veteranlarına Azərbaycan Respublikası Prezidentinin təqaüdü” təsis edilsin və onun aylıq məbləği 80 manat müəyyən olunsun.

2. Müəyyən edilsin ki:

2.1. bu Fərmanın 1-ci hissəsinə əsasən təsis edilən Azərbaycan Respublikası Prezidentinin təqaüdü:

2.1.1. 2019-cu il aprelin 1-dək kommunal, nəqliyyat və digər xidmətlərə görə sosial müavinət alan şəxslərə həmin sosial müavinətin əvəzinə, əmək pensiyası alan və döyüşən ordunun tərkibində xidmət etmiş müharibə iştirakçılarına (Böyük Vətən müharibəsi iştirakçıları istisna olmaqla), habelə döyüş əməliyyatı aparılan ölkədə hərbi xidmət borcunu yerinə yetirmiş hərbi qulluqçulara əmək pensiyasının sığorta hissəsinə əlavə əvəzinə verilir;

2.1.2. dövlət büdcəsində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə nəzərdə tutulmuş xərclər hesabına həmin nazirlik tərəfindən ödənilir;

2.2. bu Fərmanın 1-ci hissəsinə əsasən təsis edilən Azərbaycan Respublikası Prezidentinin təqaüdünü və müharibə və ya 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslərə, 1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin mühasirəsi zamanı şəhərin müəssisələrində, idarə və təşkilatlarında işləmiş və “Leninqradın müdafiəsinə görə” medalı, “Leninqrad mühasirəsində yaşayan” döş nişanı ilə təltif edilmiş şəxslərə, ümumi xəstəlik, hərbi xidmət dövründə xəstələnmə, əmək zədəsi və peşə xəstəliyi, hərbi əməliyyatlar keçirilən zonada olmaqla əlaqədar, Çernobıl AES-də qəzanın ləğvi ilə əlaqədar səbəblərdən I qrup əlilliyi olan şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünü almaq hüququ olan şəxslərə Azərbaycan Respublikası Prezidentinin qeyd olunan təqaüdlərindən yalnız biri – ən yüksəyi verilir.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını bir ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə iki ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.4. bu Fərmandan irəli gələn məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

5. Bu Fərmanın 1-ci və 2-ci hissələri 2019-cu il aprelin 1-dən tətbiq edilir.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
*Bakı şəhəri, 15 aprel 2019-cu il.*

**Azərbaycan Prezidenti İlham Əliyev aprelin 10-da Şəki şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

***Dövlətimizin başçısı aprelin 10-da Əhməd bəy Ağaoğlunun 150 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Ölkəmizin rəhbəri aprelin 10-da Argentina Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Serxio Osvaldo Perez Qunellanın etimadnaməsini qəbul edib.**

❖❖❖❖❖

***Aprelin 11-də dövlətimizin başçısı "Azərbaycan Respublikası Silahlı Qüvvələri Ali Baş Komandanının bayrağı haqqında Əsasnamə"nin və "Azərbaycan Respublikası Silahlı Qüvvələri Ali Baş Komandanının bayrağının təsviri”nin təsdiq edilməsi barədə fərman imzalayıb.***

❖❖❖❖❖

**Aprelin 11-də Azərbaycan Prezidenti İlham Əliyev Sosial Tədqiqatlar Mərkəzinin fəaliyyətinin təmin edilməsi haqqında fərman imzalayıb.**

❖❖❖❖❖

***Aprelin 11-də ölkəmizin rəhbəri “Dünya dini liderlərinin II Bakı sammiti”nin keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Dövlətimizin başçısı aprelin 12-də Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri xanım Valentina Matviyenkonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

❖❖❖❖❖

***Ölkəmizin rəhbəri aprelin 12-də Astara rayonunun Diqo, Dolu və Sekaşan kəndlərinin elektrik enerjisi ilə təchizatı haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Aprelin 15-də Azərbaycan Prezidenti İlham Əliyev Bakı şəhərinin Suraxanı rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

***Dövlətimizin başçısı aprelin 15-də Akademik Məmməd Cəfər Cəfərovun 110 illiyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Ölkəmizin rəhbəri aprelin 15-də “1941–1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin mühasirəsi zamanı şəhərin müəssisələrində, idarə və təşkilatlarında işləmiş və “Leninqradın müdafiəsinə görə” medalı, “Leninqrad mühasirəsində yaşayan” döş nişanı ilə təltif edilmiş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 2 iyul tarixli 2320 nömrəli sərəncamında dəyişiklik edilməsi barədə sərəncam imzalayıb.**

# DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

**Aprelin 17-də Daxili İşlər Nazirliyində «Təqsirləndirilən və xəbərsiz itkin düşmüş şəxslərin axtarışı », “İctimai yerlərdə baş verən cinayətlərin profilaktikası» və «Şəxsi heyətin peşə hazırlığının təşkili» sahələrində görülən işlərin vəziyyətinə həsr olunmuş geniş Kollegiya iclası keçirilib.**

Daxili işlər naziri, general-polkovnik Ramil Usubov müzakirəyə çıxarılan məsələlərin əməliyyat-xidməti fəaliyyətin mühüm sahələrini əhatə etdiyini, habelə insanların həyatının, sağlamlığının, qanuni mənafelərinin, hüquq və azadlıqlarının etibarlı qorunması baxımından böyük əhəmiyyət kəsb etdiyini vurğulayıb...

***Bax səh.2.***

# VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ!

Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Ramil Usubov 2019-cu il aprel ayının 27-də Göyçay Rayon Polis Şöbəsində Göyçay, Mingəçevir, Ağsu, Şamaxı, İsmayıllı, Yevlax, Ucar, Kürdəmir və Ağdaş şəhər və rayonlarının sakinlərini qəbul edəcək.

Vətəndaşlar daxili işlər orqanlarının əməkdaşlarının fəaliyyətinə və Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı müraciət etməklə qəbula yazıla bilərlər.

Qəbula gələnlər şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.

# DİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

**Aprelin 17-də Daxili İşlər Nazirliyində «Təqsirləndirilən və xəbərsiz itkin düşmüş şəxslərin axtarışı », "İctimai yerlərdə baş verən cinayətlərin profilaktikası» və «Şəxsi heyətin peşə hazırlığının təşkili» sahələrində görülən işlərin vəziyyətinə həsr olunmuş geniş Kollegiya iclası keçirilib.**



Daxili işlər naziri, general-polkovnik Ramil Usubov müzakirəyə çıxarılan məsələlərin əməliyyat-xidməti fəaliyyətin mühüm sahələrini əhatə etdiyini, habelə insanların həyatının, sağlamlığının, qanuni mənafelərinin, hüquq və azadlıqlarının etibarlı qorunması baxımından böyük əhəmiyyət kəsb etdiyini vurğulayıb. Son illər ölkədə uğurla həyata keçirilən islahatlar, quruculuq işləri və hüquq mühafizə siyasəti çərçivəsində daxili işlər orqanlarında da fəaliyyətin beynəlxalq standartlara uyğun təkmilləşdirilməsi üzrə əhəmiyyətli işlər görüldüyünü, qarşıda duran vəzifələri yerinə yetirməyə qadir olan peşəkar kadr özəyinin formalaşdırıldığını diqqətə çatdırıb.

Sonra gündəlikdəki məsələlər barədə məruzə ilə çıxış edən Baş Cinayət Axtarışı İdarəsinin rəisi, polis general-mayoru Arzu Daşdəmirov, Baş İctimai Təhlükəsizlik İdarəsinin rəisi, polis general-mayoru Oqtay Kərimov və Baş Kadrlar İdarəsinin rəisi, polis general-mayoru Rafiq Abbasov müzakirə olunan məsələlərlə bağlı respublikanın daxili işlər orqanları tərəfindən görülən işləri, xidməti fəaliyyətdə əldə olunmuş nəticələri, mövcud olmuş nöqsan və çatışmazlıqları diqqətə çatdıraraq onların aradan qaldırılması yollarından və qarşıda duran vəzifələrdən danışıblar.




Məruzələr ətrafında çıxış edən bir sıra şəhər, rayon polis orqanlarının rəisləri gündəlikdəki məsələlər üzrə, həmçinin cinayətkarlıqla mübarizə və ictimai asayişin təmini sahəsində həyata keçirilən tədbirlər barədə məlumat verərək iclasda səsləndirilən iradların tezliklə aradan qaldırılacağına söz veriblər.

İclasa yekun vuran daxili işlər naziri R.Usubov, əvvəlki dövrlərdə olduğu kimi, cari ilin birinci rübündə də respublikada cinayətkarlıqla mübarizədə, daxili təhlükəsizliyin, insan hüquq və azadlıqlarının qorunması sahəsində ötən illərdə əldə olunmuş müsbət nəticələrin inkişaf etdirildiyini, bu işdə prokurorluq, dövlət təhlükəsizliyi və digər hüquq mühafizə orqanları ilə birgə səmərəli fəaliyyətin mühüm rol oynadığını diqqətə çatdırıb.

O, gündəlikdəki məsələlər üzrə görülən işlərin bütövlükdə qənaətbəxş olduğunu, eyni zamanda, bəzi ərazi orqanlarının işində müəyyən nöqsan və çatışmazlıqların mövcudluğunu qeyd edərək onların aradan qaldırılması üçün adekvat tədbirlərin görülməsini tələb edib, həmçinin əməliyyat-xidməti fəaliyyətin bir sıra vacib istiqamətləri üzrə və aktual məsələlərə dair konkret tapşırıq və tövsiyələrini verib.

Vurğulanıb ki, təqsirləndirilən və itkin düşmüş şəxslərin axtarışı üzrə tədbirlər, ictimai yerlərdə baş verən cinayətlərin profilaktikası, şəxsi heyətin peşə hazırlığı sahələrində fəaliyyət gücləndirilməli, hər bir orqan və hissədə qanunçuluq, nizam-intizam möhkəmləndirilməli, vətəndaşların qəbulu, onların müraciətlərinə da ha həssas münasibət göstərilməli, hər bir ərizə və şikayətə vaxtında və operativ baxılmalı, ümumən şəxsi heyətin tapşırılmış sahəyə məsuliyyətinin yüksəldilməsi istiqamətində işlər böyük əzmlə davam etdirilməlidir.

Yekunda nazir, general-polkovnik Ramil Usubov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevi əmin edib ki, daxili işlər orqanlarının şəxsi heyəti qanunvericilikdə müəyyən edilmiş vəzifələrin, qarşıya qoyulan bütün tapşırıqların öhdəsindən bundan sonra da layiqincə gələcək, ölkədə sabitliyin, əmin-amanlığın, dövlətin və vətəndaşların qanuni mənafelərinin hüquqazidd əməllərdən etibarlı qorunması üçün qüvvə və bacarığını əsirgəməyəcək.

*17 aprel 2019-cu il.*

# VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ !

15-17 aprel 2019-cu il tarixdə Bakı şəhərində Narkotiklərlə Mübarizə üzrə 36-cı Beynəlxalq Konfransın keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Ramil Usubov tərəfindən kiçik rəis heyəti vəzifələrində xidmətə qəbulla bağlı Əlahiddə Çevik Polis Alayında keçirilməsi nəzərdə tutulan sıra baxışının vaxtı aprelin 19-u saat 8:00-a dəyişdirilmişdir.

**Əlavə məlumat almaq üçün əlaqə telefonları: (012)-590-97-52; (012)-590-94-12; (012)-590-92-37; (012)-590-93-45**

Azərbaycan Respublikası daxili işlər nazirinin birinci müavini, polis general-leytenantı Vilayət Eyvazov 2019-cu il aprel ayının 20-də Quba Rayon Polis Şöbəsində Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən və Xızı rayonlarının sakinlərini qəbul edəcək.

Vətəndaşlar daxili işlər orqanları əməkdaşlarının fəaliyyətinə və Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı müraciət etməklə qəbula yazıla bilərlər.

Qəbula gələnlər şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.

***Daxili İşlər Nazirliyi***

# BAKIDAN DÜNYAYA QLOBAL TƏRƏFDAŞLIQ ÇAĞIRIŞI

**Aprelin 15-də Bakıda Azərbaycan Respublikası Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının və Amerika Birləşmiş Ştatlarının Ədliyyə Departamentinin Narkotiklərlə Mübarizə Administrasiyasının birgə təşkilatçılığı ilə Narkotiklərlə Mübarizə üzrə XXXVI Beynəlxalq Konfrans (IDEC) işə başlayıb.**

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin fəal iştirakı ilə təşkil edilən, "Qlobal tərəfdaşlıqların səfərbər edilməsi" mövzusuna həsr olunan Bakı konfransının məqsədi narkotiklərin qanunsuz dövriyyəsinə qarşı qlobal mübarizəyə cəlb olunmuş yüksək vəzifəli rəsmiləri bir araya gətirmək, bu bəşəri problemin həlli yollarını müzakirə etmək, fikir və qabaqcıl təcrübə mübadiləsi aparmaq idi.

Dünyanın 115 ölkəsindən 432 nümayəndənin qatıldığı beynəlxalq konfrans narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı mövcud olan müasir mübarizə üsullarından mütəxəssislərin bəhrələnməsinə şərait yaradıb.

Konfransın açılış mərasimində əvvəlcə fəxri qarovul dəstəsi tərəfindən Amerika Birləşmiş Ştatlarının və Azərbaycan Respublikasının dövlət bayraqları salona gətirilib.

Sonra narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizədə həlak olan şəxslərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Daha sonra ABŞ-ın və Azərbaycanın dövlət himnləri səsləndirilib.

Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov beynəlxalq konfransda çıxış edib.

Konfransda Azərbaycan Respublikası Baş nazirinin müavini, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının sədri Əli Həsənovun, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyevin, ABŞ-ın Azərbaycandakı səfiri Örl Litzenberqerin çıxışları dinlənilib.

Aprelin 17-də də davam edən Bakı konfransında narkotiklərlə mübarizə üzrə müzakirələr aparılıb, Azərbaycan paytaxtından dünyaya yeni mesajlar verilib.

# TARİXİMİZİN ƏBƏDİ SALNAMƏLƏRİ

**YUNESKO-nun abidələrin və diqqətəlayiq yerlərin mühafizəsi məsələləri üzrə Beynəlxalq Şurasının 1983-cü ildə qəbul edilmiş qərarı əsasında 18 aprel Abidələrin Mühafizəsi Günü kimi qeyd olunur. Məqsəd dünya ictimaiyyətinin diqqətini maddi-mədəniyyət abidələrinin qorunmasına yönəltməkdir.**

Tarixi abidələr keçmişimizin maddi yadigarlarıdır. Onlar zamanın sərt sınaqlarına tab gətirərək bu günümüzə gəlib çatmışlar. Qobustan, Zəngəzur, Gəmiqaya, İstisu qayaüstü təsvirləri, Çıraqqala, Oğlanqala, Cavanşir, Gülüstan, Əlincə, Buğurd, Gələsən-Görəsən qalalarımız, Möminə xatun, Yusif ibn Küseyr, Olcaytu Xudabəndə kimi məqbərələrimiz, Göy məscid, Şah Abbas məscidi, Cümə məscidi, Təzəpir məscidi kimi dini ibadətgahlarımız, Həşt-behişt, Şirvanşahlar, İrəvan sərdar, Şəki xan sarayları kimi nadir memarlıq abidələrimiz bu qəbildəndir.



***Ermənistanın işğalı altında olan torpaqlarımızda 500-dək memarlıq, 100-dən çox arxeoloji abidə,***



***on minlərlə eksponatı olan 22 muzey, 4 rəsm qalereyası, 46 milyon kitab və əlyazma saxlanılan 927 kitabxana, 808 klub, 85 musiqi və incəsənət məktəbi, 20 mədəniyyət sarayı, 4 dövlət teatrı qalmış, 1852 mədəniyyət və incəsənət abidəsi erməni vəhşiliyinin qurbanı olmuşdur.*** Milli özünəməxsusluğu özündə əks etdirən minlərlə tarixi-memarlıq abidəsi, xatirə-memorial kompleksləri və muzey-qoruqlar dağıdılmışdır. Təkcə Şuşada 129 memarlıq abidəsi, o cümlədən Şuşa qalası, Xan, Qaxal mağaraları, Kəlbəcərdə Alban kilsəsi, Qalaboynu, Comərd, Keşikçi qalaları, Tağlıdaş körpüsü dağıdılmış, Tarix-diyarşünaslıq muzeyinin eksponatları talan, Daş heykəllər muzeyi yerlə-yeksan edilmişdir. Zəngilan, Laçın, Qubadlı, Ağdam, Cəbrayıl, Füzuli və Xocalı rayonlarının mədəni-tarixi abidələri də erməni vandallarının vəhşiliyinə məruz qalmışdır.

Azərbaycan müstəqillik əldə etdikdən sonra tarixi abidələrə münasibət kökündən dəyişməyə başladı. Beynəlxalq İnkişaf Assosiasiyası ilə Azərbaycan hökuməti arasında imzalanmış "Mədəni irsin qorunmasına yardım haqqında"sazişə uyğun olaraq, Bakıda Şirvanşahlar saray-kompleksində, Naxçıvanda Möminə xatun və Qarabağlar türbələrində, Şəki xanlarının saraylarında bərpa və yenidənqurma işləri aparılmışdır. 2002-ci ildə respublikamız Abidələrin Bərpası və Tətbiqi Beynəlxalq mərkəzinə üzv qəbul olunmuşdur.

Ulu öndərimizin və möhtərəm Prezidentimizin xüsusi diqqəti və qayğısı ilə ölkəmizin hər yerində onlarla dini-mədəni abidə ən yüksək səviyyədə təmir və bərpa olunmuş, Heydər Əliyev Fondunun fəal iştirakı ilə tarixi abidələrimizin beynəlxalq ictimaiyyətə tanıdılması üçün böyük işlər görülmüşdür.

***A.Nəcəfova, polis polkovnik-leytenantı***

# DÜNYANIN AZƏRBAYCAN GERÇƏKLİYİ

**Ölkə başçımızın yürütdüyü uğurlu və dayanıqlı siyasət sabitliyin, əmin-amanlığın qorunub-saxlanılmasına, xalqın rifah halının yüksəldilməsinə xidmət edir. Məhz bu səbəbdən də ölkəmizdə güclü iqtisadiyyat yaradılıb, eyni zamanda sosial problemlərin həllində müəyyən addımlar atılır.**

Bu gün ölkəmiz ümumdaxili məhsulun artım dinamikasına görə dünya dövlətlərinin lideri statusunu daşıyır. Bunun önəmli səbəblərindən biri də iqtisadiyyatımızın inkişafının təkcə enerji sektoru üzərində köklənməyərək, digər mühüm sahələri də əhatə etməsidir.



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ilk 3 ayda böyük islahatlar paketi çərçivəsində imzaladığı sərəncam və fərmanlar, sosial sahədə qəbul olunmuş qərarlar və nəticələr özünü çox da gözlətmir.

**Ölkədə aparılan uğurlu islahatlar nəticəsində bu ilin birinci rübündə əhalinin gəlirləri təxminən 10 faiz artıb.**

**Minimum əməkhaqları, minimum pensiyalarda artım 38 faiz təşkil edib, 100 minə yaxın tələbənin təqaüdünün artırılması dövlətimizin iqtisadi qüdrətinin daha da yüksəldiyini bir daha təsdiqləyir.**

**On dörd kateqoriya üzrə sosial müavinətlər, 7 kateqoriya üzrə Prezident təqaüdləri orta hesabla 100 faiz artıb.**

**Əlilliyi olan 300 min şəxsin sosial durumunun yaxşılaşdırılması üçün konkret addımlar atılıb.**

Ölkə başçımızın tapşırığına uyğun olaraq, şəhid ailələri və həmin döyüşlərdə yaralanaraq əlil olmuş hərbiçilərlə bağlı mühüm sosial müdafiə tədbirləri həyata keçirilib. Onlara qanunvericilikdə nəzərdə tutulan qaydada müvafiq sosial təminat növləri, o cümlədən Prezidentin aylıq təqaüdləri, müavinət və ya əmək pensiyaları, habelə uşaqlarına, eləcə də əmək pensiyası almaq hüququ olmayan şəhid ailəsi üzvlərinə müavinətlər təyin olunub.

**Şəhid ailələrinə birdəfəlik ödəmələr verilib, onlar üçün Prezidentin aylıq təqaüdünün məbləği mütəmadi olaraq artırılıb.**

Hərbi xidmət vəzifəsini yerinə yetirməklə, o cümlədən Aprel döyüşləri ilə əlaqədar əlilliyi olanlar üçün müavinət və təqaüdlər aprelin 1-dən 100 faizədək artırılıb.

**Şəhid ailələrinin gecikmiş olan kredit borclarının dövlət tərəfindən ödənilməsi haqqında qərar qəbul edilib.**

***N. Aytəkin***

## AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRLİYİ TİBB İDARƏSİNİN MÜALİCƏ–PROFİLAKTİKA MÜƏSSİSƏLƏRİNDƏ VAKANT OLAN HƏKİM VƏZİFƏLƏRİNƏ XİDMƏTƏ QƏBULLA ƏLAQƏDAR

## MÜSABİQƏ ELAN EDİR

Elan olunmuş müsabiqədə dövlət ali təhsil müəssisələrində narkoloq, uroloq, onkoloq, travmatoloq, cərrah, neyrocərrah və epidemioloq ixtisası almış, tibb və təhsil müəssisələrində həmin ixtisas üzrə rezidentura keçmiş, ixtisas üzrə azı 5 il praktiki təcrübəyə malik, yaşı 35-dən yuxarı olmayan, həqiqi hərbi xidmət müddətini tam başa vurmuş (kişilər üçün), əvvəllər özü və yaxın qohumları məhkum olunmamış (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumlar istisna olmaqla), "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə"də müəyyən olunmuş şərtlərə cavab verən, Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonunda yaşayış yeri üzrə qeydiyyatda olan Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilərlər.

Müsabiqədə iştirak etmək istəyən şəxslər 2019-cu il mart ayının 27-dən aprel ayının 27-dək **http://www.mia.gov.az/index.php?/az/content/29942** ünvanının yerləşdirilmiş elektron ərizə formasını şəxsən dolduraraq elektron poçt vasitəsi ilə Daxili İşlər Nazirliyinin Tibb İdarəsinin internet **medical@mia.gov.az** ünvanına göndərməlidirlər.

Elektron ərizənin qeydiyyata alınması barədə müvafiq məlumat aldıqdan sonra müsabiqədə iştirak etmək üçün dəvət edilən namizədlər aşağıdakı sənədləri təqdim etməlidirlər:

***-şəxsiyyət vəsiqəsi;***
***-ali təhsil haqqında diplom;***
***-hərbi bilet (kişilər üçün);***
***-əmək kitabçasının surəti.***

Müsabiqə qaliblərinə müvafiq xüsusi rütbə verilməklə Azərbaycan Respublikası DİN-in kadrları tərkibinə daxil edilərək ilkin olaraq 500 manat aylıq təminat xərcliyi, eləcə də göstərdiyi pullu xidmətə görə əlavə pul vəsaiti ödəniləcək, habelə onların qanunvericiliklə müəyyən olunmuş qaydada daxili işlər orqanları əməkdaşlarına şamil olunan bütün imtiyazlardan istifadə hüququ veriləcək.

**Əlavə məlumat almaq üçün əlaqə telefonları:**
**012-590-20-59**
**012-590-20-94**

***DİN-in Baş Kadrlar İdarəsi***

**İnsan hüquq və azadlıqlarının qorunması, yaradılan sabitlik və əmin-amanlıq ölkəmizə təşrif buyuran əcnəbilərin də diqqətini çəkir. Paytaxtda və yerlərdə xalqımızın qonaqpərvərliyinin, səmimiyyətinin şahidi olanların dara düşəndə, problemlə üzləşəndə, gedəcəkləri məkanı tapmaqda çətinlik çəkəndə üz tutduqları, kömək istədikləri polis olur. Necə deyərlər, vətəndaşlarımızla yanaşı, turistlər də umduqları yerdən küsmürlər. Hətta bəziləri ilə söhbət zamanı: "Düzü, biz belə gözləmirdik. İndi bildik və gördük ki, Azərbaycanda nə üçün polisə etibar edirlər",-deməsi fəaliyyətimizə verilən qiymətin bariz nümunəsidir.**

Onlar həm də öz minnətdarlıqlarını DİN-ə ünvanladıqları məktublar bildirirlər. Biz də onlardan bir neçəsini diqqətinizə çatdırırıq.

## ƏCNƏBİLƏR YAZIRLAR

**İran İslam Respublikasının vətəndaşı Ğəffari Peyman Darab oğlu** şikayət ərizəsinə baxıldığına və üzləşdiyi problemin həllində göstərdiyi köməyə görə Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin rəhbərliyinə minnətdarlığını bildirir.

**İran İslam Respublikasının digər vətəndaşı Şəmsi Şəmsəddin Fətulla oğlu** da ona dəymiş maddi ziyanın ödətdirilməsində göstərdiyi köməyə görə bu idarənin istintaq xidmətinin əməkdaşlarına təşəkkür edir.

**Gürcüstan vətəndaşı Bakhar Kuliyeva** yazır ki, Qazax Rayon Polis Şöbəsinin əməkdaşlarının səyi nəticəsində baş vermiş soyğunçuluq hadisəsinin üstü açılmış və ona dəyən ziyan ödənilmişdir.

**Pakistan İslam Respublikasının vətəndaşı Tajdar Muhammed Ali** ona məxsus pul kisəsini oğurlayaraq qaçan şəxsin qısa zamanda tutulmasında və dəymiş ziyanın ödətdirilməsində göstərdiyi köməyə görə Nəsimi Rayon Polis İdarəsinin şəxsi heyətinə minnətdarlığını ifadə edir.

**Rusiya Federasiyasının Kirov vilayətinin Balezinşina kəndinin sakini İvan Manko** DİN-ə ünvanladığı məktubunda 2018-ci ilin sentyabr ayında istirahət mərkəzlərindən birində dincələrkən ondan hesabdan 500 avronun artıq alındığından şübhələndiyini, bu məsələ ilə əlaqədar polisə müraciət etdikdən sonra pulunun qaytarılmasına görə minnətdarlığını bildirir, həmkarlarımızın peşəkarlığını yüksək qiymətləndirir.

**Hindistan vətəndaşı Jinesh Thaippall, Türkiyə vətəndaşı Çətin İbic Kamal oğlu** dəymiş ziyanın ödətdirilməsində köməklik göstərdiklərinə görə Nəsimi RPİ-nin 22-ci PŞ-nin və Səbail RPİ-nin 9-cu Polis Bölməsinin rəhbərliyinə minnətdarlıqlarını bildirirlər.

***Aytən Tahirova, polis leytenantı***

## MƏKTƏBLİLƏRLƏ GÖRÜŞ



**Yol nəqliyyat hadisələrindən yayınmaq, qəzaların qurbanı olmamaq üçün təhlükəsizlik vərdişləri hər kəsə uşaq yaşlarından aşılanmalıdır. Bu məqsədlə yol polisləri tərəfindən şagirdlər arasında davamlı təbliğat-təşviqat və maarifləndirmə işləri aparılır.**

Belə tədbirlərdən biri bu günlərdə Binəqədi Rayon Polis idarəsi DYP şöbəsinin təşkilatçılığı ilə 246 nömrəli orta məktəbdə keçirilib. Tədbirdə məktəb kollektivi, şagirdlər və valideynlər də iştirak ediblər.

Məktəbin direktoru Almaz Bayramova bildirib ki, yol hərəkəti qaydalarının təbliği uşaqların bilik və bacarıqlarının formalaşmasına müsbət təsir göstərir.

Daha sonra çıxış edən DYP şöbəsinin əməkdaşları "Yol Hərəkəti Təhlükəsizliyinə dair Dövlət Proqramı"nın icrası ilə bağlı polisin üzərinə düşən vəzifələr barədə məlumat veriblər. Qeyd edilib ki, məktəblilər arasında maarifləndirmə işlərinin aparılmasında əsas məqsəd onların həyatını qorumaq və uşaqların qəzalardan zərər çəkməsini minimuma endirməkdən ibarətdir.

Tədbir zamanı şagirdlərə yol nəqliyyat hadisələrinin törətdiyi ağır fəsadlardan bəhs edən videoçarxlar nümayiş etdirilib. Görüntülər əsasında şagirdlərlə yol polisləri arasında maraqlı diskusiya təşkil edilib.

Tədbirin sonunda fərqlənən şagirdlərə hədiyyələr təqdim olunub.

Qeyd edək ki, şöbə son bir neçə ayda 5 orta məktəbdə bu cür maarifləndirici tədbir keçirib. Təhsil ilinin sonuna qədər belə görüşlər digər məktəblərdə də keçiriləcək.

***Anar Qafarov, polis baş leytenantı***

**"Bu gün bütün dövlət strukturları ilə yanaşı, hüquq-mühafizə orqanları tərəfindən bəşəriyyətin bəlasına çevirilmiş narkomaniyanın qarşısını almaq üçün mühüm addımlar atılır, paytaxtda və yerlərdə ictimaiyyət nümayəndələrinin, gənclərin iştirakı ilə tədbirlər keçirilir. Təəssüf ki, Sumqayıtda da narkotik vasitələrdən istifadə edən, onun alışı-satışı ilə məşğul olan şəxslər var və bunlar bizi narahat edir".**



Bu fikirlər Sumqayıtdakı 18 nömrəli məktəbdə narkomaniya və erkən nikah mövzusunda keçirilən tədbirdə səslənib.

Şəhər Polis İdarəsinin rəisi, polis polkovniki Nəriman İmanovun "Kimin sağlığı varsa, onun ümidi var" fikri keçiriləcək tədbirin mövzusuna aydınlıq gətirdi. Rəis dedi ki, narkomaniya təkcə sağlamlığımızı deyil, gəncliyimizi və gələcəyimizi təhdid edir. Kitabdan, təhsildən uzaq düşənləri, valideyn nəzarəti olmayanları öz təsiri altına salan qüvvələr, dünyada sabitlik adası olan Azərbaycanı

## GƏLƏCƏYİN VƏ GƏNCLİYİN PROBLEMİ

## NARKOMANİYA



gözü götürməyənlər bu vasitə ilə də kriminogen durumu dəyişməyə, cinayətkar əməllərin çoxalmasına çalışırlar. Polisin keçirdiyi bu tədbirlərin əsas hədəfi qapımızı səssiz-səmirsiz döyən bəlanın qarşısını almaq, onun qurbanına çevrilməməkçün hər kəsi vaxtında maarifləndirməkdir.

ŞPŞ-nin Veteranlar Şurasının sədri Rustavan Əliyev sağlam həyat tərzinin təbliği istiqamətində maarifləndirmə işinin və narkotiklərə qarşı polisin apardığı mübarizənin əhəmiyyətini qeyd edib.

Məktəbin direktoru Leyla Abdullayeva rəhbərlik etdiyi təhsil müəssisəsində Şəhər Polis İdarəsi əməkdaşlarının mütəmadi olaraq maarifləndirici tədbirlər keçirməsini təqdirəlayiq hal kimi qiymətləndirib.

Həkim-narkoloq Vüsal Cabbarov narkomanlığın genefondumuza ağır zərbə vurduğunu, onun doğurduğu təhlükələri hərtərəfli qiymətləndirməyin və mübarizə tədbirlərinin əlaqələndirilmiş formada aparılmasının vacibliyinə diqqət çəkdi.

Yetkinlik yaşına çatmayanlarla profilaktiki işin təşkili bölməsinin rəisi, polis polkovnik-leytenantı Yaqub Baxşəliyev və digərləri çıxışlarında gələcəyimiz olan gəncləri qorumağa yönəlik tədbirlərdə valideynlərin də iştirakının polislə həmrəyliyin bariz nümunəsi olduğunu bildirdilər.

Tədbirə yekun vuran polis polkovniki N.İmanov narkomaniya ilə yanaşı, sağlam həyat naminə erkən nikahların da qarşısının alınması üçün valideyn-övlad münasibətlərinin düzgün qurulmasının əhəmiyyətini, bu sosial problemə ictimai diqqətin artırılmasının vacibliyini vurğulayıb.

***Hafiz Təmirov, polis mayoru***

**Övladımızı düzgün tərbiyə etmək, onu ailəsinə, vətəninə layiqli vətəndaş kimi yetişdirmək hər bir valideynin arzusudur.**

**"Uşaq ata-anasından çox zəmanəsinə bənzəyir",- deyən dahinin əsrlər keçsə belə, yanılmadığını görürük.**

Bəzən "uşaqdır" deyib keçirik. Və sonrakı peşmançılıq fayda vermir. Uşağın bilərəkdən və ya bilməyərəkdən etdiyi hərəkətlərə, ərköyünlüyünə gülürük, bəzən hətta xoş anlar yaşayırıq. İctimai yerlərdə, harasa qonaq gedəndə bu şıltaqlıq kimlərinsə gülüşünə səbəb olur, digərlərini əsəbləşdirir və uşağın düzgün tərbiyə olunmamasında ətraf mühiti yox, valideyni günahlandırırlar. Bəs, körpənin şıltaqlığı qarşısında aciz qalanda nə edirik?

"Yeməyini yeməsən "küpəgirən qarı" sənin payını yeyəcək, qaranlığa getmə, orda "xoxan" var, ağlasan həkim gəlib iynə vuracaq, sözümə qulaq asmasan, şuluqluq etsən, polis gəlib aparacaq". Məncə, kifayət edər.

Bütün bunlardan sonra uşaq sakitləşir və biz də rahatlıq tapırıq. Amma heç düşünmürük ki, körpənin psixologiyasında hansı proseslər baş verir. Unuduruq ki, körpə, həssas uşaq xarakteri hər sözümüzü, hər bir hərəkətimizi süngər kimi canına çəkir. Bunun arxasında isə bir neçə psixoloji amil durur. Məsələn, uşaq düşünür ki, həkim, polis gəlib onu ata-anasından ayıracaq. Bu qorxu onun daxili aləmini zədələyir. Hətta o, gecələr pis yatır, yeməkdən qalır, durumu acınacaqlı vəziyyətə düşür. Unutmayaq ki, uşağın nəzərində biz hamıdan güclüyük, hər şeyi bilirik...

## GƏRƏKDİR Kİ, SEVSİNLƏR...

Uşaqlar böyüdükcə problemlərimizlə birgə məsuliyyətimiz də artır. Elə edək ki, onlar böyüyəndə vaxtı ilə qorxduğu peşə sahiblərini – polisi və həkimi sevsinlər. Haqsızlıqla üzləşəndə və ya atdığı səhv addım barəsində polisi məlumatlandırsın, ona ürək qızdırsın, ona əzizi, doğması kimi baxsın, sözünü deməkdən çəkinməsin. Övladımızın yaşadığı cəmiyyətin sağlam parçası olmasını istəyiriksə, əvvəlcə özümüzə diqqət yetirməliyik. Uşaqlara dostluq edərək onları başa salmaq lazımdır, necə ki, xilaskar kimi valideynləri görürlər, eləcə də həkimə, polisə xilaskar gözü ilə, məhəbbətlə baxmalıdırlar.

***Ruslan Vəliyev, polis leytenantı***

## YARIŞIN TƏQVİMİ AÇIQLANIB



**Aprelin 26-28-də Bakı şəhər halqasında Formula 2 yarışları keçiriləcək. Yarışda 10 komandadan 20 pilot birincilik uğrunda mübarizə aparacaq.**

Aprelin 26-da saat 11:30-da sərbəst yürüşlər təşkil olunacaq. Həmin gün saat 16:50-də təsnifat yarışlarına start veriləcək. Aprelin 27-də saat 13:10-da birinci, bir gün sonra isə 14:15-də ikinci yarış keçiriləcək. İlk yarışda pilotlar 32, növbəti yürüşdə isə 23 dövrə vuracaqlar.

***Ş.Çingiz***

## GEC OLSA DA GÜC OLDU

***-Xoş gördük, əmioğlu, çoxdandı görünmürsən?***
***-Özün demişdin ki, əliboş gəlmə!***
***-Xeyir xəbərin var, deyəsən...***

Rayon ərazisində dalbadal bir neçə oğurluq törətmişdilər. Polis izlərinə düşsə də yaxalanmamışdılar. Törətdikləri əməllərin cəzasız qalması onları lap arxayınlatmışdı. Özlərini gözəgörünməz hesab edirdilər.

Məhəllə-məhəllə, ev-ev gəzib, sonda axtardıqlarını tapdılar. Neftçala rayonu Bankə qəsəbə sakini Solmaz Mustafayevanın mənzilindən nə bir səs gəlirdi, nə də bir işartı görünürdü. Hər ehtimala qarşı ətrafı saatlarla güddülər. Evdən hənirti belə gəlmirdi. Kimsənin onları görmədiyindən əmin olduqdan sonra hasardan keçib evin ətrafını gəzdilər. Pəncərələrdən birinin qarşısında durdular. Özləri ilə gətirdikləri lingi işə salıb pəncərəni sındırdılar, ehmalca mənzilə keçdilər. Kimsənin gəlməyəcəyindən əmin olduqlarından arxayınca hər tərəfi axtardılar. Nəhayət, tapdılar.

S.Mustafayeva mənzilində oğurluq olmasını bir də evə qayıtdıqdan sonra öyrəndi. Dərhal da polisə məlumat verdi. Neftçala Rayon Polis Şöbəsinin rəisi, polis polkovniki Vüsal Şəbəndiyevin əmri ilə yaradılmış əməliyyat-istintaq qrupu hadisə yerinə yollanıb lazımi araşdırmalar apardı.

*Ardı 4-cü səhifədə*

*Əvvəli 3-cü səhifədə*



# GEC OLSA DA GÜC OLDU

Rəisyanı əməliyyat müşavirəsində bir daha son hadisələr müzakirə olundu, qətiyyətli tədbirlərin görülməsi tapşırıldı. Dəqiqliklə keçirilən araşdırmalar, faktlar arasındakı oxşarlıq oğurluqların eyni şəxs və ya şəxslər tərəfindən törədilməsi qənaətinə gəlməyə əsas verirdi.

Nəhayət, bütün dəlil-sübutlar şübhələri rayon sakinləri Fariz Şirəliyevə və qohumu Peyman Talıblıya yönəltdi.

İkisi də polisə dəvət olundu. Fazil günahsız yerə saxlandıqlarını, onların halal zəhmətlə pul qazandıqlarını ciddi-cəhdlə bildirdi. Sonda mənzillərdən götürülmüş əl-barmaq izlərinin onlarınkı ilə üst-üstə düşməsi və digər danılmaz faktlar qarşısında törətdiyi əməlləri etiraf etməkdən başqa yolu qalmadı.

Sonrakı araşdırmalar nəticəsində qohumların bundan başqa qəsəbədə 5, Bakının Suraxanı rayon ərazisində isə 7 analoji cinayət törətmələri müəyyən olundu.

Bu uğurlu əməliyyat barəsində bizə məlumat verən polis polkovniki V.Şəbəndiyevdən onu da öyrəndik ki, cari ilin geridə qoyduğumuz üç ayı ərzində 38 cinayətin 97,8 faizinin açılması təmin edilib. O cümlədən ağır və xüsusilə ağır cinayətlərin 100, qeyri-aşkar şəraitdə baş verənlərin 96,6, mülkiyyət əleyhinə törədilənlər isə 95,6 faiz açılmışdır. Narkotiklə bağlı 13 fakt aşkarlanmış, qanunsuz dövriyyədən 3 kiloqrama yaxın narkotik vasitə çıxarılmışdır.

Axtarışda olan 10 nəfər, təqsirləndirilən şəxsdən 8-i tutulmuş, xəbərsiz itkin düşən 6 nəfərdən 5-nin yeri müəyyən edilmişdir. Borclu şəxs kimi 163 nəfər axtarışda olmuşdur ki, onlardan da 112-sinin məhkəmə orqanlarına verilməsi təmin olunmuşdur.

*Çingiz Şıxverdiyev,*
*polis polkovnik-leytenantı*

# YARARSIZ MƏHSUL AŞKAR EDİLİB

**Əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsi, insan sağlamlığına ciddi zərər vuran, istifadəyə yararsız yeyinti məhsullarının satışının qarşısının alınması istiqamətində polis orqanlarının müvafiq qurumlarla birgə tədbirləri davam etdirilir.**

Növbəti belə tədbir aprelin 15-də DİN-in Baş İctimai Təhlükəsizlik İdarəsinə bilavasitə tabe olan Karantin tədbirlərini təmin edən Əlahiddə Polis Taboru əməkdaşlarının Qida Təhlükəsizliyi Agentliyinin nümayəndələri ilə birgə Tovuz rayonu ərazisində keçirilib.

Qazqulu kəndi ərazisində Şəmkir rayon sakini T.Əliyevin idarə etdiyi "Ford Transit" markalı avtomobilə baxış zamanı N.Əliyevə məxsus, istifadəyə yararsız halda olan 150 kiloqram çəkidə mal əti aşkar edilərək götürülüb.

Ətdən götürülmüş nümunələr müvafiq ekspertizanın keçirilməsi üçün Qida Təhlükəsizliyi Agentliyinin laboratoriyasına təhvil verilib.

Araşdırma aparılır.

# "XƏZRİ" sizi gözləyir!




**Daxili İşlər Nazirliyinin "Xəzri" İstirahət və Sağlamlıq Mərkəzində standart otaq üçün bir günlük xərcin 8 fevral-31 may 2019-cu il tarixlərdə mövsüm üzrə qiymətləri**
**(daxili işlər orqanlarının əməkdaşı üçün 14 gün müddətinə olan yollayışda nəzərdə tutulmuş güzəştlərlə)**

**Qeyd:** 1. "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmətkeçmə haqqında" Əsasnamənin 99-cu bəndinə əsasən, daxili işlər orqanları əməkdaşlarına hər il yollayışın qiymətinin 75 faizi miqdarında, ailə üzvlərinə isə 50 faizi miqdarında imtiyaz verilir. Yollayışlar 14 gün müddətinə ildə bir dəfə verilir və yalnız standart otaqlara aiddir. Bu imtiyaz iki bərabər hissəyə (hər biri 7 gün müddətində) bölünmək şərtilə verilə bilər.

2. Daxili Qoşunların hərbi qulluqçuları (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) qanunvericiliklə müəyyən edilmiş əsaslarla Mərkəzə yollayış almaq hüququna malikdirlər.

3. Bir günlük xərc tək polis əməkdaşı üçün 22,50 manat (iki nəfərlik nömrəni tək tutduqda 37,50 manat), standart 2 nəfərlik otaqda özü və 1 nəfər ailə üzvü üçün 67,50 manat, özü və 5-12 yaşadək bir uşaq (dolu otaqda əlavə yer verilmək şərti ilə) üçün 67,50 manat, iki nəfər ailə üzvü üçün (özü olmadan) 90,00 manat və onlarla birgə 5-12 yaşadək uşağa əlavə yer verildikdə 120,00 manat təşkil edir.

4. Üç yaşdan aşağı uşaqlar Mərkəzə qəbul edilmir.

5. 3-5 yaşda uşaqların qalması ödənişsizdir.

6. Qiymətlərə pulsuz 3 dəfə yemək, Wi-Fi şəbəkəsi, SPA girişi (qapalı hovuz, hamam, sauna), çimərlikdən, açıq hovuzdan, akvaparkdan, trenajorlardan, mini-futbol, voleybol və uşaq meydançalarından istifadə daxildir. Digər bütün xidmətlər ödənişlidir.

**Ünvan: Bakı şəhəri, Zuğulba qəsəbəsi, Rasim İmanov küçəsi, 40. Mərkəzə "Koroğlu" metro stansiyasından 171 nömrəli avtobuslar gəlir.**
**Telefon: (+99412) 554-47-60;**
**Mobil telefon: (+99450) 291-15-51; (+99455) 291-15-51**
**Faks: (+99412) 453-63-33;**
**Poçt indeksi: AZ1090**
**E-poçt: info@khazribaku.az**
**Veb-sayt: www.khazri.mia.gov.az**

**8 fevral - 31 may 2019-cu il**

**(2 nəfərlik standart otağın güzəştsiz qiyməti : iki nəfər qaldıqda 180 manat, bir nəfər tək qaldıqda 150 manat)**

| | 2 nəfərlik nömrədə iki istirahətçi qaldıqda 1 nəfər üçün | 2 nəfərlik nömrədə bir istirahətçi tək qaldıqda |
|---|---|---|
| Yollayışla gələn polis əməkdaşı (75% güzəştlə) | 22,50 manat | 37,50 manat |
| Onun ailə üzvü (50% güzəştlə) | 45,00 manat | 75,00 manat |
| Polis əməkdaşı ilə birgə 5-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (50% güzəştlə) | 30,00 manat | |
| Kənar şəxslər (güzəştsiz qiymət) | 90,00 manat | 150,00 manat |
| Valideyni ilə birgə 5-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət) | 60,00 manat | |

Aprelin 10-da Türkiyə polisinin yaradılmasının 174-cü ildönümü qardaş ölkədə geniş qeyd olunub.

Tarixi mənbələrə görə, Osmanlı dövlətində ictimai asayişi qorumaq üçün müxtəlif təşkilatlar fəaliyyət göstərib. Yeniçəri Ocağının ləğv olunmasından sonra, 1845-ci ildə İstanbulda təsis edilən Polis Təşkilatı şərəfli inkişaf yolu keçib. Həmin il aprelin 10-da "Polis Nizamnaməsi"-nin qəbul edilməsi ilə Türkiyə polisi rəsmən fəaliyyətə başlayıb.

Ötən ilin statistik göstəricilərinə əsasən, təşkilatın sıralarında 292 min 208 əməkdaş çalışır. Qurum əməkdaşlarının 93 faizi kişilərdən, 7 faizi isə qadınlardan ibarətdir. Ötən il ölkədə 15 min 333 nəfər xidmətə daxil olub.

*****




***Qəzalar nəticəsində əzilmiş və yararsız hala düşmüş avtomobillər Tbilisinin mərkəzi küçələrində xüsusi hazırlanmış bir neçə yerdə tərsinə qoyularaq nümayiş etdirilib.***

***Ölkədə ilk dəfə keçirilən aksiyanın təşkilatçısı nə paytaxt meriyası, nə də Daxili İşlər Nazirliyidir. Bununla belə, heç bir qurum əzilmiş avtomobillərin nümayişinə etiraz etməyib.***

***Aksiyanın özəl şirkətlər və qeyri-hökumət təşkilatları tərəfindən keçirildiyi ehtimal olunur. Bildirilir ki, aksiya son zamanlar avtomobillərin iştirakı ilə törədilən qəzaların sayının artmasına etiraz əlaməti olaraq təşkil edilib.***

***Əzilmiş avtomobillərin çevrilmiş halda nümayişi böyük marağa və sosial şəbəkələrdə geniş müzakirələrə səbəb olub.***

***Gürcüstanda avtomobil qəzalarının böyük əksəriyyəti paytaxt Tbilisidə qeydə alınıb. 2018-ci ildə ölkə üzrə 6400 avtomobil qəzası qeydə alınıb, nəticədə 459 nəfər həyatını itirib.***

*****

Ötən il İranda baş verən avtomobil qəzalarında 16 min nəfər həlak olub, 300 mindən çox adam yaralanıb. İranın Təcili Tibbi Yardım Təşkilatı xəbər verir ki, ölkədə avtomobillərin sayının çoxalması yollarda qəzaların sayının da artmasına səbəb olub.

Əvvəlki illərlə müqayisədə qəzalar zamanı ölüm halları 1,2, yaralanma hadisələri isə 9,7 faiz artıb.

*****

***Aprelin 12-də Yeni Zelandiyada hücum və yarımavtomat silahlar, eyni zamanda onlar üçün sursatın qadağan edilməsi barədə qanun rəsmi olaraq qüvvəyə minib. Silahın saxlanmasına görə beş ilədək həbs cəzası tətbiq ediləcək. Qanuna görə, yalnız peşəkar ovçulara və kolleksiyaçılara güzəşt olunacaq. Qadağan edilmiş silaha malik olan digər şəxslər sentyabrın sonunadək onu polisə təhvil verməlidirlər.***

***Qanun qüvvəyə mindikdən sonra təxminən min nəfər polisə müraciət edərək onlardakı silahı təhvil vermək niyyətində olduqlarını bildirib. Daha 400 nəfər polisin qaynar xəttinə müraciət edərək bu məsələ ilə bağlı məsləhət alıb.***

***Yeni Zelandiyanın hakimiyyət orqanları silahların təhvili ilə bağlı proseduru sürətləndirmək üçün onları vətəndaşlardan satın almaq qərarına gəlib.***

*****

2017-ci ildə Amerika Birləşmiş Ştatlarında odlu silahdan atəş açılması ilə bağlı cinayətlərin sayı ən yüksək səviyyəyə çatandan sonra belə hadisələrin sayı bir qədər azalıb və 2018-ci ildə 27 fakt qeydə alınıb.

Federal Təhqiqatlar Bürosunun (FTB) 2000-ci ildən sonrakı dövrə aid statistik məlumatlarına görə, bu göstəricinin ən pis artımı 2017-18-ci illərdə müşahidə olunub. 2018-ci ildə 16 ştatda 27 hadisə zamanı 85 nəfər qətlə yetirilib, 128 nəfər yaralanıb.

FTB-nin qənaətinə görə, "odlu silahlardan atəş açanlar" dedikdə insanların toplaşdığı yerlərdə onların qətlə yetirilməsində və ya qətlə yetirmək cəhdlərində fəal iştirak edən şəxs və ya şəxslər qrupu nəzərdə tutulur.

*N.Cavadov*

# Aprelin 10-dan 16-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən ötən həftə ərzində 167 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 112 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 125, o cümlədən mülki hüquqi öhdəliklərin icrasından yayındığına görə 6, borclu şəxs qismində axtarışda olan 49 nəfər saxlanılaraq aidiyyatı üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 9 ağır yol-nəqliyyat hadisəsi baş vermişdir ki, nəticədə 11 nəfər ölmüş, 4 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 85 fakt müəyyən edilmişdir.

Nəqliyyatda Baş Polis İdarəsinin rəisi Emin Şəkinski və şəxsi heyəti rəis müavini Məhəmməd Məmmədova qardaşı **RAMİZ MƏMMƏDOVUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş Əməliyyat və Statistik İnformasiya İdarəsinin rəisi Elşən Kazımov və şəxsi heyəti Məhəmməd Məmmədova qardaşı **RAMİZ MƏMMƏDOVUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Mətbuat Xidmətinin rəisi Ehsan Zahidov və şəxsi heyəti Məhəmməd Məmmədova qardaşı **RAMİZ MƏMMƏDOVUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Şəxsi Heyətlə İş İdarəsinin rəisi Rahib Qarayev tələbə yoldaşı **RAMİZ MƏMMƏDOVUN** vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

DİN Maliyyə-Plan İdarəsinin rəisi Ramil Baloğlanov və şəxsi heyəti Məhəmməd Məmmədova qardaşı **RAMİZ MƏMMƏDOVUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Gəncə ŞBPİ-nin rəisi Əkbər İsmayılov və şəxsi heyəti Məhəmməd Məmmədova qardaşı **RAMİZ MƏMMƏDOVUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

NBPİ Su Nəqliyyatında Polis İdarəsinin rəisi Rövşən Eyyubov və şəxsi heyəti Məhəmməd Məmmədova qardaşı **RAMİZ MƏMMƏDOVUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

NBPİ Dəmiryol Nəqliyyatında Polis İdarəsinin rəisi Yaşar Nuriyev və şəxsi heyəti Məhəmməd Məmmədova qardaşı **RAMİZ MƏMMƏDOVUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Xətai RPİ-nin rəisi İlqar Məmmədov və şəxsi heyəti Məhəmməd Məmmədova qardaşı **RAMİZ MƏMMƏDOVUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Nərimanov RPİ-nin rəisi Vaqif Müslümov və şəxsi heyəti Məhəmməd Məmmədova qardaşı **RAMİZ MƏMMƏDOVUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Nizami RPİ-nin rəisi Ədalət Abbasov və şəxsi heyəti Məhəmməd Məmmədova qardaşı **RAMİZ MƏMMƏDOVUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Lənkəran ŞRPŞ-nin rəisi İslam Hümbətov və şəxsi heyəti Məhəmməd Məmmədova qardaşı **RAMİZ MƏMMƏDOVUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şəmkir RPŞ-nin rəisi Elnur Həsənov və şəxsi heyəti Məhəmməd Məmmədova qardaşı **RAMİZ MƏMMƏDOVUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ağdaş RPŞ-nin rəisi Rasim Mustafayev və şəxsi heyəti Məhəmməd Məmmədova qardaşı **RAMİZ MƏMMƏDOVUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Siyəzən RPŞ-nin rəisi Valik Vəlimətov və şəxsi heyəti Məhəmməd Məmmədova qardaşı **RAMİZ MƏMMƏDOVUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Cəlilabad RPŞ-nin rəisi Mübariz Quliyev və şəxsi heyəti Məhəmməd Məmmədova qardaşı **RAMİZ MƏMMƏDOVUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Biləsuvar RPŞ-nin rəisi Əlyəddin Səfərov və şəxsi heyəti Məhəmməd Məmmədova qardaşı **RAMİZ MƏMMƏDOVUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ucar RPŞ-nin rəisi Eldar Paşayev və şəxsi heyəti Məhəmməd Məmmədova qardaşı **RAMİZ MƏMMƏDOVUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Neftçala RPŞ-nin rəisi Vüsal Şəbəndiyev və şəxsi heyəti Məhəmməd Məmmədova qardaşı **RAMİZ MƏMMƏDOVUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Göyçay RPŞ-nin rəisi Sənan Əsədov və şəxsi heyəti Məhəmməd Məmmədova qardaşı **RAMİZ MƏMMƏDOVUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Qazax RPŞ-nin rəisi Ədalət Əliyev və şəxsi heyəti Məhəmməd Məmmədova qardaşı **RAMİZ MƏMMƏDOVUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Beyləqan RPŞ-nin rəisi Rəşid Piriyev və şəxsi heyəti Məhəmməd Məmmədova qardaşı **RAMİZ MƏMMƏDOVUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Yevlax RPŞ-nin rəisi Elnur Mehdiyev və şəxsi heyəti Məhəmməd Məmmədova qardaşı **RAMİZ MƏMMƏDOVUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

MÜBARİZ KEŞİKDƏ qəzetinin Kompyuter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.
Redaktor
CAVİD XASPOLADOV
Qeydiyyat № 155. İndeks: 66993
Sayı 9.978
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 18:00